# ƏLİYEV İLHAM MÜZƏFFƏR OĞLU ƏLİYEV



Əliyev İlham 5 may 1961-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. Orta məktəbi 1978-ci ildə bitirmiş, 1980-ci ildə hərbi xidmətə çağırılmışdır. 1982-ci ildə ordudan tərxis olunduqdan sonra Gədəbəy rayonunda Kommunal Təsərrüfatı İdarəsində, sonra isə İsmayıllı rayonunda mexanikləşdirilmiş dəstədə çalışmışdır. 1983-cü ildə onu DİN-nin təyinatı ilə İsmayıllı rayon DİŞ-nə qəbul edirlər. Bir müddətdən sonra işini Gədəbəy rayon DİŞ-nin mühafizə bölməsinə dəyişirlər. İ.Əliyev 1985-ci ildə Bryansk Xüsusi Orta Milis Məktəbinə daxil olur. 1987-ci ildə Gədəbəy rayonunda sahə müvəkkili, Gəncə şəhər DİŞ-də sahə müfəttişi, sonra isə cinayət-axtarış bölməsində əməliyyatçı vəzifələrində çalışır. O, rəhbərlik tərəfindən dəfələrlə mükafatlandırılmış, "Milis əlaçısı" döş nişanına layiq görülmüşdür. 19 avqust 1990-cı ildə Leytenant İ.Əliyev torpaqlarımızın müdafiəsinə göndərildi. Qazax rayonunun Aşağı Əskipara kəndi od-alov içində yanırdı. Ermənistanla həmsərhəd olan bu kənd fasiləsiz olaraq erməni yaraqlıları tərəfindən atəşə tutulurdu. İlham 11 nəfərlik dəstə ilə məktəbin binasını özünə mövqe seçir, quldurların kəndə soxulmasına mane olur. Düşmən ağır itki verməsinə baxmayaraq geri çəkilmir, kəndi mühasirəyə almağa çalışırdı. İlham yoldaşlarını xilas etmək üçün düşməni özünə cəlb etmiş, qarın nahiyəsindən ağır yaralanmış, Qazax rayon xəstəxanasına çatdırılsa da, həyatını xilas etmək mümkün olmamışdı. Gədəbəy rayonunda dəfn edilib. Evli idi. Bir övladı var. "Qırmızı Ulduz" ordeninə layiq görülüb. Azərbaycan Respublikası prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə İlham Müzəffər oğlu Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Gədəbəy şəhərindəki 1 saylı tam orta məktəb qəhrəmanın adını daşıyır. Məktəbin Önündə büstü qoyulmuşdur.